

# Uğurlu insan olmağı hədəf seçən vəzifə sahibi

## Mustafa Abbasbəyli: “Gənclərin yetişməsində, fərd olmasında, uğur qazanmasında töhfəmin olmasını çox istəyirəm”

**Lalə MUSAQIZI**

**Karyerası boyu cəmi 3-4 ay sıravi işçi olub. Ondan sonra ancaq rəhbər vəzifələrdə çalışıb. Deyir ki, hər bir işçinin ümumilikdə şirkət, komanda rəhbər üçün faydalılıq əmsalı var. Hesab edir ki, işçinin faydalı olması üçün onun bir neçə xüsusiyyətə sahib olması lazımdır: işinə həvəs, bacarıq, loyallıq, yəni - komandaya, şirkətə və rəhbərliyə bağlılıq. Onun fikrincə, sadaladığı üç xüsusiyyət bir işçidə cəmləşirsə, o deməkdir ki, həmin şəxs şirkət, komanda, rəhbər üçün faydalıdır. O da həmişə çalışıb ki, faydalı olsun. Bunun nəticəsidir ki, çalışdığı şirkətlərdə tez-tez vəzifə yüksəlişlərinə nail olub. Müsahibimiz ”Beyli Group”un rəhbəri, ”Xəzər Avropa klubu”nun İdarə Heyətinin üzvü, komitə rəhbəri, İqtisad Universitetinin müəllimi, ”LAYF” xeyriyyə ictimai birliyinin həmtəsisçisi və İdarə Heyətinin sədri, Vəkillər Kollegiyasının üzvü, hüquq üzrə fəlsəfə elmləri doktoru Mustafa Abbasbəylidir.**

**- Deyəsən, işə sığorta agenti kimi başlamısınız...**

- Bəli, sığorta şirkətində başlamışam. Hüquqşünas olmağıma baxmayaraq, məni sığorta satışına yönləndirdilər. Tam bir ay sığorta satışı mütəxəssisi kimi fəaliyyət göstərəndən sonra hüquq şöbəsinə keçirdilər.

**- Sığorta satıcısı kimi işə başlayanda hədəfiniz nə idi?**

- Mənim hədəflərim bundan bir neçə il əvvəl, hələ məktəbdə oxuyarkən artıq formalaşmağa başlamışdı...

**- Nə idi hədəfləriniz?**

- Uğurlu insan olmaq. Eyni zamanda, cəmiyyət və dövlət üçün maddi, mənəvi və digər cəhətlərdən faydalı insan olmaq.

**- İlk işə başlayandan cəmi 3-4 ay sonra sizi sığorta şirkətində şikayətlər və hüquq şöbəsi müdirinin əvəzedicisi, cəmi 1 il sonra şöbə müdiri təyin etdilər? Hansı xüsusiyyətlərinizə görə?**

- Hər bir işçinin ümumilikdə şirkət, komanda, rəhbər üçün faydalılıq əmsalı var. Hər bir işçi çalışmalıdır ki, şirkətə maksimum faydalı olsun. Mən o vaxtı işçi idim, indi artıq mənim işçilərim var. Hesab edirəm ki, işçinin faydalı olması üçün onun bir neçə xüsusiyyətə sahib olması lazımdır. Bunlardan birincisi həvəsdir, işçidə işinə entuziazm olmalıdır. İkincisi, bacarıqdır. Üçüncü, loyallıq, yəni - komandaya, şirkətə və rəhbərliyə bağlılıqdır. Bu əsas olan üç xüsusiyyətdir. Digərləri də dürüstlük, məsuliyyət və sairdir. Amma sadaladığım üç xüsusiyyət bir işçidə birləşirsə, o deməkdir ki, həmin şəxs şirkət, komanda, rəhbər üçün faydalıdır. Mən də həmişə çalışmışam ki, faydalı olum. Yəqin ki, bunların nəticəsidir ki, çalışdığım şirkətlərdə tez-tez vəzifə yüksəlişlərinə nail olmuşam.

**- Karyeranız boyu cəmi bir neçə ay sıravi işçi kimi çalışmısınız. Ondan sonra ancaq rəhbər vəzifələrdə işləmisiniz. Yaxşı rəhbər necə olmalıdır?**

- Rəhbər bizim sovet dönəmində tanıdığımız direktor kimi əsəbiləşən, səsini yüksəldən, kobudluq edən, prosesləri qorxu ilə idarə edən bir şəxs olmalı deyil. Bu gün biz yeni şirkətlərə, dünya təcrübəsinə nəzər salanda görürük ki, rəhbərin tamam fərqli xüsusiyyətləri var. Rəhbər özü öndə getməli, davranışı, iş fəaliyyəti ilə örnək olmalıdır. Biz nə qədər desək ki, özümüz fərqli olub, işçilərdən isə tamam fərqli şeylər tələb edək, bu, nəticə verməyəcək. Bu, ailədə də, işdə də belədir. Hər hansı şirkətin başçısı hesab edin ki, ailənin başçısıdır. Biz oğlumuza ”siqaret çəkmə” deyib, özümüz siqaret çəkiriksə, bunun effekti olmayacaq. İşdə də belədir, işçilərdən intizam, çalışqanlıq, faydalı olmağı tələb ediriksə, öncə biz özümüz elə olmalıyıq. Biz elə olsaq, ətrafımızda da bizə bənzər işçilər toplaşacaq və onlar da bizim qədər faydalı olacaq.

**- 2012-ci ildə özündə müxtəlif istiqamətləri birləşdirən bir şirkət yaratdınız. Necə oldu ”Beyli Group”u yaratmaq qərarına gəldiniz?**

- Bu ideya mən şirkətlərdə fəaliyyət göstərdiyim dövrlərdən var idi. Bir neçə il fəaliyyət göstərəndən, müəyyən təcrübə topladıqdan sonra şirkət yaratmaq qərarına gəldim. Beləliklə, ”Beyli Group” şirkətini yaratdıq. Hazırda fəaliyyət istiqamətlərimizi artırmağa çalışırıq.

**- Şirkətinizin əsas fəaliyyəti yəqin ki, sığorta ilə bağlıdır. Çünki uzun illər bu sahədə çalışmısınız. Öz işlərini qurmaq istəyən gənclərimizə nə tövsiyə edərdiniz?**

- Dünyada sübut olunub ki, hər hansı şirkətdə çox uğurlu bir işçi öz işini qurmaq qərarına gələndə, bəzən uğursuz da ola bilər. Şirkət daxilində də, fərdi iş qurduqda da insanın intizamlı olması əsas şərtlərdən biridir. İnsanlar sərbəst olanda intizamı itirirlər. Hər hansı bir şirkət daxilində məcburiyyət, tələblər olduğundan insanlar intizamlı olur, nəticədə hansısa sahədə uğura imza atırlar. Amma öz işlərini quranda səhər tezdən durmaq, bütün günü işdə olmaq, hər hansı vəzifəni yerinə yetirmək tələbi olmadığından insanlar rahatlaşır, intizamlarını itirir və bir çox hallarda uğur qazana bilmirlər. Hesab edirəm ki, öz işini qurmaq, sıfırdan başlamaq istəyən şəxs öz intizamına əmin olmalıdır. Sərbəstlik olduğu halda, çalışqanlığını qoruyacağına, qoyduğu çərçivələrdən kənara çıxmayacağına əmindirsə, bu işə başlasın. Birinci məsələ budur. İkinci məsələ isə qeyd etdiyiniz kimi, yaxşı bildiyi, uğur qazanmaq ehtimalını gördüyü işdən başlaması-dır. Əgər o sahəni inkişaf etdirə, uğur qazana bilirsə, daha sonra digər sahələrə keçə bilər.

**- ”Beyli Group”un rəhbəri, ”Xəzər Avropa klubu”nun İdarə Heyətinin üzvü, komitə rəhbəri, İqtisad Universitetinin müəllimisiniz. Vaxtı idarə etmək üçün hansı üsullarınız var?**

- Planla işləməyi sevirəm. Plana çox ciddi riayət edirəm. Plan olduqdan sonra hər şeyə yetişmək, vaxt ayırmaq mümkündür. Sadəcə, plan dəqiq qurulmalıdır. Bir də düşünürəm ki, aktiv olmaq lazımdır. Bizim qarşımızı adətən passivliyimiz alır. İşi günü günə sataraq yerinə yetiririk. Bu isə planı pozur, insanın işgüzarlığına xələl gətirir və vərdişləri itirir.

**- ”LAYF” xeyriyyə ictimai birliyinin həmtəsisçisi və İdarə Heyətinin sədrisiniz. Bu təşkilatı yaratmaq ideyası necə yarandı?**

- Anam rəhmətə gedəndə atam, böyük qardaşım və bacımla belə bir xeyriyyə təşkilatı yaratmağa qərar verdik ki, ehtiyac sahiblərinə, əməliyyatla sağalmaq ehtimalı olan insanlara, xüsusilə, uşaqlara yardım edə biləcək bir təşkilat yaradaq. Dostum Emil Vəliyevlə birlikdə 1 oktyabr 2014-cü ildə təşkilatı yaratdıq. İdarə Heyətinin sədri vəzifəsi daha çox nəzarətedici funksiya daşıdığı üçün mənim çox zamanımı almır. Əsas işlər icraçı direktor Emil Vəliyev tərəfindən uğurla həyata keçirilir. Qurumun gündəlik fəaliyyətinə o rəhbərlik edir.

**- Bəs maliyyəni haradan əldə edirsiniz?**

- Öz gücümüz, maliyyəmizlə məsələnin maddi tərəfini həll edirik. İmkanlarımız daxilində xüsusilə, uşaqlara kömək etməyə çalışırıq. Təşkilatımız bu sahədə kifayət qədər uğur qazanıb, talassemiya, qan donorluğu sahəsində çox ciddi bir quruma çevrilib. Çox böyük qan donoru bazamız var. Hətta, deyim ki, Azərbaycanda ən böyük qan donor bazası bizdədir. Talassemiyalı xəstələrin qana ehtiyacı olduqda, bizə müraciət edirlər. Biz dərhal bazadan istifadə edib, onları qanla təmin edirik. Cəmi 2 yaşımız olmasına baxmayaraq, bu sahədə onlarla uğurlu layihələrə imza atmışıq.



**- İş adamlarının, maddi imkan sahiblərinin xeyriyyəçiliklə məşğul olması nə dərəcədə vacib sayırsınız?**

- Çox vacibdir. Xaricdəki uğurlu iş adamlarının təcrübəsindən də görürük ki, hər birinin xeyriyyə tərəfi var. Bundan əlavə, təbii ki, imkanı olan hər bir insan digərinə əl tutmalıdır. Bu, mütləqdir. Ona görə hesab edirəm ki, bütün imkanı olanlar, iş adamları, hər bir şəxs öz imkanı daxilində başqasına kömək etməlidir. Çünki imkanlı da, imkansız da eyni cəmiyyətdə yaşayır, eyni cəmiyyəti paylaşır.

**- Ənənəvi sualımız: uğur sirriniz nədədir?**

- Çalışqanlıq, komandaya bağlılıq, öz üzərində işləmək.

**- Bir neçə dil bilirsiniz. Uğur qazanmaq istəyən gənclərimizin dil bilməsi vacibdir?**

- Məncə, vacibdir. Çünki dil ünsiyyət vasitəsidir. Nə qədər çox dil bilsək, o qədər çox insanla ünsiyyət qurmaq, informasiya əldə etmək imkanımız olur. Dil seçimində isə dilin əhatə etdiyi kütləni müəyyən etməliyik. Yeni dil öyrənmək istəyiriksə, nə qədər çox insanın, nə qədər çox dövlətin bu dildən istifadə etməsinə nəzər salmalıyıq. Özününkişafda da dil bilgisi çox vacibdir. Öz üzərimizdə işləyiriksə, hər gün nəyisə öyrəniriksə, o dillərdən istifadə edirik. Dil bilməyən insan dünya informasiyasının 70 faizindən kənarda qalır. Bu baxımdan dil çox önəmlidir.

**- Avtobioqrafiyanıza nəzər saldıqda, təhsil almağa xüsusi önəm verdiyiniz görünür. Azərbaycanda Xəzər və İqtisadiyyat, Türkiyədə Ege və Ankara universitetlərinin tələbəsi olmusunuz, Azərbaycan Milli Elmlər Akademiyasında hüquq üzrə fəlsəfə elmləri doktoru adını almısınız**

- İnsan hər zaman təhsilə önəm verməlidir. Çünki insanın özünü yetişdirməsində təhsilin çox böyük önəmi var. Təhsili iki hissəyə bölmək lazımdır; birincisi, məktəbdə, universitetdə əldə etdiyimiz təhsil, ikincisi, özünütəhsil, yəni üzərimizdə işləyərək özümüzü yetişdirməyimiz. Mən ikincini daha önəmli sayıram. Hesab edirəm ki, hər şəxs hər gün özünü yetişdirməli, oxumalıdır. Məşhur bir ifadə var: təhsil - çörək, özünütəhsil isə - yağ və ikra qazana bilməyimiz üçün lazımdır.

**- Təhsildən söz düşmüşkən, hüquq üzrə fəlsəfə doktoru elmi adı alandan sonra necə oldu ki, İqtisad Universitetində elmlər doktoru üzrə müdafiə etmək qərarına gəldiniz?**

- Çalışıram ki, yenilikçi olam, yeni trendləri nəzərə alam. Bu gün dünya daha çox iqtisadiyyatdan asılıdır. Hüquqşünas elə bir ixtisasdır ki, insanı daxildən yetişdirir, fərqli düşüncə tərzinə sahib edir. Amma digər meyilləri nəzərə almaq lazımdır və qeyd etdiyim kimi, bugünkü dünyanın əsas istiqaməti iqtisadi biliklərdir.

**- Hüquq üzrə fəlsəfə doktorusunuz. Sizcə, iş adamının elmin bu qədər dərinliyinə yiyələnməsi çoxmu vacibdir?**

- İş adamından fərqli olaraq, mənim pedaqoji fəaliyyətim də var. Artıq bir neçə ildir universitetlərdə mühazirələr oxuyuram. Hətta qeyd etdiyiniz kimi, İqtisad Universitetinin müəllimiyəm. Müəllimlik mənim üçün qısamüddətli fəaliyyət sahəsi deyil. Özümü daim bu sahədə görürəm. Bu səbəbdən təhsil mənim prioritetlərimdəndir.

**- Dərs demək istəyi hansı tələbatdan irəli gəlir?**

- Cəmiyyətə faydalı olmaq, gənclərə öz təcrübəmizdən istifadə edərək, hər hansı bir yolu göstərmək tələbatından irəli gəlir. Gənclərin yetişməsində, fərd olmasında, uğur qazanmasında töhfəmin olmasını çox istəyirəm. Bunu özümə bir hüquq kimi deyil, bir vəzifə kimi qəbul edirəm.